


“Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bəyan edib.

Dövlət başçısının bu fikri yaddaşımızı bir qədər təzələmək üçün sanki bir təkan oldu. Azərbaycanlıların daha kompakt yaşadığı Güney Azərbaycanını göz önünə gətirdik. Quzeydə hələ də yetərincə tanınmayan Güney barədə düşüncələrimizin fonunda onun ədəbiyyatını, nəsrini, poeziyasını, yazar soydaşlarımızın mücadiləsini ifadə edən nümunələri xatırladıq.

Qəzetimizdə "Güneydən səslər..." rubrikası altında Güney ədəbiyyatının, folklorunun, mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələri ilə oxucularımızı da tanış edirik.

## NƏSİM CƏFƏRİ



1985-ci ildə Zəngan şəhərində dünyaya göz açıb. Güney Azərbaycanın tanınmış şairi Hüşəng Cəfərinin qızıdır. Nəsim Cəfəri ilk və orta məktəbi bitirdikdən sonra təhsilini ədəbiyyat sahəsində davam etdirib. Bu gün "Müqayisəli ədəbiyyat" üzrə doktorantura pilləsində təhsil alır. O, iki dildə (farsca və türkcə) yazıb-yaradır. Bəzi əsərləri başqa dillərə, o cümlədən ingilis, alman, fransız, ərəb, kürd və İsveç dillərinə tərcümə olunub. Bir sıra şeirləri Anadolu türkcəsinə uyğunlaşdırılıb. Nəsimin bu günə kimi "Güzgü", "Ay calanır", "Bir gözüm şoranlıq, bir gözüm bulaq", "Yakamoz", "Əski çaynikdə demokratiya dəmləmişəm", "Bənövşə oyunudur sevgi", "Dünyanın cibinin yırtığın tikirəm", "Kaktus gözlərində liberal yaşadım", "Anamın "On iki barmaq" yarasıyam", "Arabayla dovşan tutur Tanrı" əsərləri daha geniş yayılıb.

Ürəyim  
sınıq bir küzə,  
Gözlərin  
İsa bulağı...  
Küzəliyimə tökülmə!  
Sınıq küzə su saxlamaz...  
Kasa-küzəni  
qara bəxtimin başında sındıraram!

## MEHDİ ƏZİMİ



1986-cı ildə Təbrizdə dünyaya göz açıb, həmin şəhərdə ilk və orta təhsilini bitirib. Bu günə kimi şairin iki şeir toplusu işıq üzü görüb: "Tərlan dərəsi" (2015) və "Döyüşdən dönməyən əsgər" (2018). Mehdinin yazdığı şeir qəlibləri dördlük və sərbəstdir.

İşim deyil səni sevirəm demək,  
Gözlərim yaşlanar ürəyim dolar.  
Ürəyim özünü yaddan çıxardar,  
Gözlərim gözündə özündən olar.

Çevrildi üzümə bir-bir silahlar,  
Tətiklər birbəbir geri çəkildi.  
Bir damla gözümdən axdı torpağa,  
Topraqdan mən boyda Vətən tikildi.

Buradan dünyaya dönüb baxıram,  
Tarixə qaranlıq yoldur gələcək.  
Belə düşüncəsiz həyatda axı,  
Mənim mənliyimi kim gətirəcək?

Röyamda əlləri titrək bir qoca,  
Dayanıb çəliyə göylərə baxır.  
Önümdə bir uşaq gülür üzümə.  
Başımın üstündən bir ulduz axır.

Esmira Fuad